# Bəstəkar Azər Dadaşov

Dadaşov Azər İsmayıl oğlu, 1 dekabr 1946-cı ildə Bakı şəhərində anadan olub.

1971-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıqüzrə Qara Qarayevin sinfini bitirib. Diplom Щ № 312960

1971-1972 illərdə orduda xidmət edib.

1973-cü ildən pedaqoji fəalliyətini Sumqayıt Musiqi Texnikumunda başlayıb.
Hal hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında professor vəzifəsində çalışır.

1973-cü ildən SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. Üzvülük vəsiqəsi № 28

Hal hazırda Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin üzvüdür; ABİ-nın "Simfonik, səhnə və xor musiqisi" bölməsinin sədridir.

"Humay" milli mükafatı laureatıdır (10 saylı "Catarsis" simfoniyası, 2001)

Dini mövzuda əsərlərə görə Roma Papası İoan Pavel II-nin Medalı ilə təltif olunub (2002).

Azərbaycan professional rejissorlar Gildiyasının İdarə Heyətinin üzvüdür (2003). Üzvülük vəsiqəsə K-B/057

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi (2005). Vəsiqə № 0065

Professor attestatı (2013). Vəsiqə - PR № 01222

MDB ölkələrin Parlament arası Assambleyası Şurasının tərəfindən "Mədəniyyət və İncəsənət inkişafı sahəsində xidmətlərinə görə" Fəxri Nişanı ilə təltif olunub (2013).Nişan № 10

Azərbaycan Respublikasının Xalq artisti (2018) . № I-53

"Qafqaz-Media" İctimai Birliyinin "İlhamlı Azərbaycan" medalı (2021).Vəsiqə № 066

"Azərbaycan Bəstəkarlar İttifaqı – 90" Medalı (2024)

200-dən cox əsərlərinin müəllifidir, o cümlədən - 16 simfoniya, böyük simfonik orkestr üçün "Zəfər çələngi", "Divertisment", "Konsertino", "Pastoral süitası", "Xocalı" plakatı, "Balaca Mukun sərgüzəştləri" operası, "Fitnə" və "Şərq freskası" baletləri, fortepiano orkestr ilə 3 Konsert və "Poema",

vətənpərvərlik mövzusunda solist, xor və simfonik orkestr üçün 20 kantata və oda, xalq çalğı alətləri orkestri üçün 4 Süita, nəfəs alətləri üçün marşlar, kamera-instrumental əsərləri, xor və estrada mahnıları, fortepiano üçün əsərlər, kino və teatr musiqi və s.
Habelə Azərbaycan Milli Paralimpiya Himninin müəllifidir.

Əsərləri nəinki Azərbaycanda, habelə ABŞ, Fransa, İngiltərə, Finlandiya, İşveçrə, Rusiya, Ukrayna, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Türkiya, İran və b. ölkələrində ifa olunmuşdur. Bir çox məşhur dirijorlar – Niyazi, Rauf Abdullayev, Nazim Rzayev, Ramiz Məlikaslanov, Yalçın Adıgözəlov, Teymur Göyçayev, Fəhrəddin Kərimov, Əyyub Quliyev, Fuad İbrahimov, Mustafa Mexmandarov, Dmitri Kitaenko (Rusiya), Şavleq Şilakadze (Gürcüstan), Roman Matsov (Estoniya), Vladimir Runçak (Ukrayna), Alibek Kabduraxmanov (Özbəkistan), Migel Kampoz Neto (Braziliya), Mersedes Garsia Diaz ( İspaniya) və b. – A.Dadaşovun simfonik əsərlərinin təfsirçisi olmuşlar.

Respublikanın görkəmli musiqiçiləri – Fərhad Bədəlbəyli, Firəngiz Əlizadə, Zeynəb Xanlarova, Fidan və Xuraman Qasımovalar, Yegana Axundova, Siyavuş Kərimi, Azər Zeynalov, Ədilə Əliyeva, Ülviyyə Hacıbəyova, Namiq Sultan, Murad Adıgözəlzadə, Murad Hüseynov, Əli Əsgərov, Fəridə Məmmədova, Səbinə Əsədova və b. bəstəkarın əsərlərini ifa ediblər.

Azər Dadaşovun əsərləri musiqi təhsili ocaqlarında geniş istifadə olunur və tədris proqramlarına daxil edilir.

Bakıda Azər Dadaşov adına pianoçuların Beynəlxalq müsabiqəsi keçirilir (2009-2010, 2013, 2016, 2019, 2021, 2023-cü illərdə).

Azər Dadaşov Respublikada keçirilən müxtəlif musiqi müsabiqələrin münsiflər heyətinə daxil edilmişdir.

A. Dadaşovun yaradıcılığına həsr olunmuş bir neçə kitab işıq üzü görüb, habelə müxtəlif illərdə elmi konfranslar keçirilib.

Azər Dadaşov Dünya Azəerbaycanlılarının Qurultaylarına nümayandə seçilmişdir.

"Yeni Azərbaycan" partiyasının üzvüdür. Üzvvlük vəsiqəsə № 570071

Ünvan:
Bakı şəh., Bakıxanov qəs., Sakit Qocayev küç., ev 19, bl.2, mərtəbə13, m.5
Tel.: (050) 365 37 25
E-mail: azerdadashov1946@gmail.com